**“Təsdiq edilmişdir”**

**“Azərbaycan Fond Bazarı İştirakçılarının Assosiasiyası” İctimai Birliyinin İdarə heyətinin Sədri cənab Ceyhun Hacıyev**

M.Y

# "İnvestor" tirajlı stimullaşdırıcı lotereya

# Ş Ə R T L Ə R

**(3-cü redaksiyada)**

1. **LOTEREYA VƏ ONUN TƏŞKİLATÇISI BARƏDƏ MƏLUMATLAR**

1.1. **Lotereya təşkilatçısı:** “Azərbaycan Fond Bazarı İştirakçılarının Assosiasiyası” İctimai Birliyi

1.2. **Lotereya təşkilatçısının olduğu yer:** Bakı şəhəri, Nəsimi rayonu, Nizami küçəsi 111

1.3. **Lotereya təşkilatçısının əlaqə məlumatları:** info@afbia.az, +994512514399

1.4. **Lotereya təşkilatçısının VÖEN-i:** 1401264981

1.5. **Lotereyanın adı: "İNVESTOR"** tirajlı stimullaşdırıcı lotereya (bundan sonra-Lotereya).

1.6. **Lotereyanın keçirilmə forması:** Kağız formatda tirajlı stimullaşdırıcı lotereya.

1.7. **Lotereya ilə stimullaşdırılması nəzərdə tutulmuş məhsul:** “Bakı Fond Birjası” QSC-nin təşkil etdiyi korporativ qiymətli kağızlar bazarında premium və standart seqmentində istiqraz alışı üzrə əqdin bağlanması.

2. **LOTEREYANIN KEÇİRİLMƏ MÜDDƏTİ**

2.1. Lotereya 09.03.2022-ci il tarixindən 15.11.2022-ci il tarixinədək müddət ərzində keçiriləcək.

3. **LOTEREYANIN KEÇİRİLDİYİ ƏRAZİ**

3.1. Azərbaycan Respublikası

4. **LOTEREYA BİLETLƏRİ (ONLARA BƏRABƏR TUTULAN DİGƏR MƏLUMAT DAŞIYICILARI) VƏ ONLARIN ƏLDƏ EDİLMƏSİ QAYDALARI HAQQINDA MƏLUMAT**

4.1. Azərbaycan Respublikası Bakı şəhərində fəaliyyət göstərən bu Şərtlərin 4.2-ci bəndində qeyd edilən İnvestisiya Şirkətləri vasitəsilə minimal nominal dəyəri 1000 manat/ABŞ dolları/Avro valyutalarında istiqraz alışının sifarişini verən və “Bakı Fond Birjası” QSC-nin təşkil etdiyi korporativ qiymətli kağızlar bazarında premium və standart seqmentində əqdi keçən 18 yaşı tamam olmuş fiziki şəxs “1 əqd-1 lotereya bileti” prinsipi ilə lotereya biletini əldə edir və lotereyada iştirak etmək hüququnu qazanır.

4.2.

"AzFinance İnvestisiya Şirkəti" QSC- Bakı ş., Nəriman Nərimanov küç. 206, Capital Tower;

“CPM-İnvest İnvestisiya Şirkəti QSC-Bakı ş., Cəlil Məmmədquluzadə, 102A, City Point Baku, 8-ci mərtəbə;

"Paşa Kapital İnvestisiya Şirkəti" QSC- Bakı ş., Cəfər Cabbarlı, 44, Caspian Plaza, 10-cu mərtəbə;

"PSG-Kapital İnvestisiya Şirkəti" QSC- Cəlil Məmmədquluzadə, 102A, City Point Baku

"Unicapital İnvestisiya Şirkəti" ASC- Bakı ş., Nobel pr.15, Azzure İş Mərkəzi;
"Xalq Kapital İnvestisiya Şirkəti" QSC- Bakı şəhəri, Yasamal rayonu, İnşaatçılar prospekti 22L, məhəllə 494.

4.3. Lotereyada düzbucaqlı formasında çap edilmiş lotereya biletlərindən istifadə ediləcəkdir. Loterya biletinin ölçüsü- 140 x 54 mm. Kağızın qalınlığı: 300 qramlıq (mat).
Loterya bileti ön və arxa hissədən ibarətdir.
Biletin üzərində perforasiya hissəsi var (perforasiya hissəsindən ayrılaraq iki hissəyə bölünür). Lotereya bileti perforasiya hissəsindən kəsilərək bir hissəsi lotereya iştirakçısında qalır, digər hissəsi Lotereya təşkilatçısında qalır. Lotereya biletinin təşkilatçı və iştirakçıda qalan hər iki hissəsində eyni sıra nömrəsi qeyd edilir. İştirakçıya təqdim ediləcək lotereya biletinin ön hissəsində “İnvestor tirajlı stimullaşdırıcı lotereya" sözləri, Tirajın nömrəsi və lotereyaya uyğun dizayn məqsədli müxtəlif şəkillər əks edilmişdir. İştirakçıya təqdim ediləcək lotereya biletinin arxa hissəsində isə “İnvestor tirajlı stimullaşdırıcı lotereya" sözləri; lotereya biletinin sıra nömrəsi; tirajın uduş fondunun oynanılması tarix(lər)i; lotereyanın uduş fondu, onun oynanılması şərtləri haqqında məlumatlar; uduşların verilməsi (ödənilməsi) üçün uduşlu lotereya biletlərinin Təşkilatçı tərəfindən qəbulu müddəti və uduşların verilməsi (ödənilməsi) qaydaları; lotereya təşkilatçısının tam adı və olduğu yer və digər əlaqə məlumatları; lotereya biletini çap edən müəssisə haqqında məlumat əks etdirilmişdir.

4.4. Lotereya biletinin təşkilatçıda qalan (qutuya atılan hissəsi) hissəsində təşkilatçının loqosu, dizaynla bağlı yazılar, lotereya biletinin sıra nömrəsi və lotereya iştirakçısı tərəfindən doldurulmalı olan aşağıdakı xanalar öz əksini tapmışdır:

- Lotereya iştirakçısının adı, soyadı və ata adı;
- Lotereya iştirakçısının əlaqə nömrəsi;
- İnvestisiya Şirkətinin Müştərisinin Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi tərəfindən verilən eyniləşdirilmə nömrəsi (Pr kod).

Lotereya iştirakçısı lotereya biletini əldə etdikdən sonra lotereya biletinin üzərində olan xanaları doldurmalı və lotereya biletinin üzərinə həkk olunmuş kəsilmək üçün işarəni kəsərək lotereya lotereya biletini bu Müqavilənin 4.2-ci bəndində göstərilən ünvanlarda quraşdırılan şəffaf qutuya daxil etməlidir.

4.5. Lotereya təşkilatçısının lotereyanın keçirilməsində iştirak edən işçilərinin, habelə onların ailə üzvlərinin (övladları, valideynləri və ya həyat yoldaşları) lotereyada iştirak etməsinə yol verilmir.

## 5. LOTEREYANIN UDUŞ FONDU HAQQINDA MƏLUMAT

5.1. Lotereyanın uduş fondu aşağıdakı qaydada müəyyən edilir:
1-ci tirajın uduş fondu- 3 000 (üç) min manat;
2-ci tirajın uduş fondu- 3 000 (üç) min manat;
3-ci tirajın uduş fondu- 3 000 (üç) min manat;
4-ci tirajın uduş fondu- 3 000 (üç) min manat.
Uduş fondunun ümumi məbləği 12 000 (on iki min) manat kimi müəyyən olunur.

6. **LOTEREYANIN UDUŞ FONDUNUN OYNANILMASI QAYDASI (TARİX(LƏR)İ DAXİL OLMAQLA) HAQQINDA MƏLUMAT**

6.1. Lotereyanın uduş fondunun qanunvericiliyə uyğun oynanılmasına nəzarəti həyata keçirən tiraj komissiyası Təşkilatçı tərəfindən yaradılacaq. Tiraj komissiyası üzvlərinin sayı 5 (beş) nəfərdən az olmamaq şərti ilə tək sayda yaradılır. Təşkilatçı tiraj komissiyasının ən azı bir üzvünü kütləvi informasiya vasitələrinin və ya ictimai təşkilatların nümayəndələrindən təyin edir. Təşkilatçının vəzifəli şəxsləri, onların ailə üzvləri (ər, arvad, valideynlər, övladlar və övladlığa götürülmüş şəxslər, onların ərləri və arvadları, bacılar, qardaşlar, bacı və qardaş övladları, ər-arvadların bacıları, qardaşları və valideynləri, bacıların ərləri və qardaşların arvadları, valideynlərin bacıları və qardaşları, qəyyumlar və qəyyumluğa götürülənlər), həmçinin stimullaşdırıcı lotereya obyektinin satıcısı (o, stimullaşdırıcı lotereyanın təşkilatçısı olduğu halda) tiraj komissiyasının üzvləri ola bilməzlər. Təşkilatçı tərəfindən uduş fondunun oynanılmasına azı 1 (bir) iş günü qalmış tiraj komissiyasının üzvləri haqqında məlumatı icra orqanının rəhbəri tərəfindən imzalanmış və möhürlə təsdiq edilmiş formada Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinə təqdim ediləcək. Tiraj komissiyasının sədri tiraj komissiyasının üzvləri tərəfindən adi səs çoxluğu ilə seçiləcəkdir. Tiraj komissiyasının qərarları adi səs çoxluğu ilə qəbul edilir. Qərar qəbul edilərkən tiraj komissiyasının üzvü bitərəf qala bilməz. Lotereyanın uduş fondunun oynanılmasının nəticələri tiraj komissiyasının üzvləri tərəfindən imzalanan aktla təsdiq olunacaqdır. Tiraj komissiyası tərəfindən uduş fondunun oynanılması zamanı aşkar olunmuş pozuntular barədə uduş fondunun oynanılmasının nəticələri haqqında aktda qeyd edilir və 3 (üç) iş günündən gec olmayaraq Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinə və Təşkilatçıya məlumat veriləcəkdir. Təşkilatçı uduş fondunun oynanılması zamanı lotereyanın şərtlərinin pozulması barədə məlumat aldıqda Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən müvafiq qərar qəbul edilənədək uduşların verilməsini (ödənilməsini) dayandıracaqdır.
Lotereyanın keçirilməsi müddəti ərzində şəffaf qutuya daxil edilən lotereya bilətləri lotereya tirajının oynanılma günündə Bakı şəh.,Həsən Bəy Zərdabi küçəsi, 2A, Şokolad Tower, “Bakı Fond Birjası” QSC-nin inzibati binasına gətirilir və xüsusi barabana yüklənir. Komissiyanın tərkibindən lotereya biletinin barabandan çıxarılması üçün katib seçilir; Uduşda barabandan çıxarılan 3 ədəd lotereya biletləri uduşların qaliblərini müəyyənləşdirir. Hər qalib gələn şəxs 1000 (bir min) manat uduşa sahib olur.

Uduş fondunun oynanılması Tiraj komissiyanın iştirakı ilə açıq şəkildə bu ünvanda keçirilir: Bakı şəh.,Həsən Bəy Zərdabi küçəsi, 2A, Şokolad Tower, “Bakı Fond Birjası” QSC-nin inzibati binası.
Katib barabandan bir lotereya bileti çıxarır. Çıxarılmış lotereya biletinin nömrəsi, qalibin eyniləşdirilmə nömrəsi və telefon nömrəsini uduş fondunun oynanılmasının nəticələri haqqında aktda daxil edilir.

Uduş fondunun oynanılmasının nəticələri (qaliblərin siyahısı) uduş fondunun oynanılması tarixindən etibarən lotereya təşkilatçısı tərəfindən 3 iş günü ərzində http://www.afbia.az internet səhifəsində açıqlanacaq.

Təşkilatçı tələb olunan məlumatlardan hər hansı birinin olmamasına görə məsuliyyət daşımır.
Bu şərtlərin müddəalarını pozan qalib şəxslərə uduş ödənilməyəcək və uduş fondu oynanılmamış hesab ediləcək.

6.2. **Tirajların keçirilmə tarixləri**

1-ci tirajda 09.03.2022-ci il tarixindən 09.05.2022-ci il tarixinə qədər bu Şərtlərə əsasən əldə olunan lotereya biletləri iştirak edir.
1-ci tirajın oynanılma tarixi- 10.05.2022-ci il kimi müəyyən olunur.

2-ci tirajda 10.05.2022-ci il tarixindən 10.07.2022-ci il tarixinə qədər bu Şərtlərə əsasən əldə olunan lotereya biletləri iştirak edir.
2-ci tirajın oynanılma tarixi- 13.07.2022-ci il kimi müəyyən olunur.

3-cü tirajda 13.07.2022-ci il tarixindən 13.09.2022-ci il saat 18:00-a qədər bu Şərtlərə əsasən əldə olunan lotereya biletləri iştirak edir.
3-cü tirajın oynanılma tarixi- 14.09.2022-ci il kimi müəyyən olunur.

4-cü tirajda 14.09.2022-ci il tarixindən 14.11.2022-ci il saat 18:00-a qədər bu Şərtlərə əsasən əldə olunan lotereya biletləri iştirak edir.
4-cü tirajın oynanılma tarixi- 15.11.2022-ci il kimi müəyyən olunur.

## 7. UDUŞLU LOTEREYA BİLETLƏRİNİN (ONLARA BƏRABƏR TUTULAN DİGƏR MƏLUMAT DAŞIYICILARININ) TƏŞKİLATÇI TƏRƏFİNDƏN QƏBULU VƏ UDUŞLARIN VERİLMƏSİ (ÖDƏNİLMƏSİ) MÜDDƏTİ VƏ QAYDASI HAQQINDA MƏLUMAT

7.1. Lotereyanın uduş fondu bu fondun oynanılmasınadək azı 1 (bir) saat qalmış formalaşdırılır.
7.2. Lotereyanın uduş fondu yalnız Təşkilatçının lotereyanın iştirakçıları qarşısındakı öhdəliklərin yerinə yetirilməsi məqsədi ilə istifadə olunmalıdır.
7.3. Lotereyanın uduş fondu aid olduğu tirajda tam həcmdə oynanılmalıdır.
7.4. Lotereyanın hər tirajının uduş fondu oynanıldıqdan sonra 5 (beş) iş günü ərzində uduş fondu və uduşa düşmüş lotereya biletlərinin nömrələri və (və ya) seriyaları barədə məlumat kütləvi informasiya vasitələrində elan ediləcəkdir.
7.5. Lotereyanın hər tirajının uduş fondunun oynanılmasının nəticələrinin açıqlanması həmin tiraj üzrə uduşlu lotereya biletlərinin identifikasiya nömrələrinin (olduqda), yaxud uduşlu lotereya biletlərini (onlara bərabər tutulan digər məlumat daşıyıcılarını) və ya onların sahiblərini eyniləşdirmək imkanı verən göstəricilərin, habelə onların hər birinə düşən uduşların kütləvi informasiya vasitəsilə elan edilməsi yolu ilə həyata keçiriləcəkdir.
7.6. Təşkilatçı uduşların verilməsi (ödənilməsi) üçün uduşlu lotereya biletlərini (onlara bərabər tutulan digər məlumat daşıyıcılarını) lotereyanın şərtlərində göstərilmiş qaydada və müddətdə lotereya iştirakçılarının ilk tələbi ilə qəbul etməlidir.
7.7. Uduşlu lotereya biletlərinin Təşkilatçı tərəfindən qəbulu müddəti həmin lotereyanın (tirajın) uduş fondu oynanıldığı tarixdən etibarən 7 (yeddi) iş günündən gec olmayaraq başlanılacaq və 90 (doxsan) iş günü ərzində davam edəcəkdir.
7.8. Uduş Təşkilatçı tərəfindən uduşlu lotereya bileti qəbul edildiyi tarixdən etibarən 20 (iyirmi) iş günü ərzində lotereyanın qalibinə təqdim ediləcəkdir.
7.9. Təşkilatçı tərəfindən lotereya iştirakçısına uduşun ödənilməsi üçün lotereya iştirakçısı lotereya təşkilatçısına aşağıdakı sənədləri təqdim etməlidir:
- lotereya iştirakçısının şəxsiyyətini təsdiq edən sənəd;
- və lotereya biletinin lotereya iştirakçısında olan hissəsi;
- Uduşun lotereya qalibin köçürülməsi üçün lotereya qalibinin adına olan bank hesabının rekvizitləri.

7.10. Lotereya qalibi bu Şərtlərin 7.9-cu bəndində göstərilən lazımi sənədləri təqdim etmədikdə, eləcə də Lotereya İştirakçısı Lotereya bitdikdən sonra uduşun alınması üçün bu Şərtlərin 7.7-ci bəndində göstərilən müddətlərdə müraciət etmədiyi halda lotereya qalibi uduşu almaq hüququnu itirir.

8. **LOTEREYADA İŞTİRAK ÜZRƏ İSTİSNALAR**

Aşağıda göstərilən şəxslərin Lotereyada iştirak etmək hüquqları yoxdur və istənilən halda Lotereyanın iştirakçısı sayılmırlar:

a) 18 yaşına çatmamış şəxslər;

b) Lotereyanın Təşkilatçısının əməkdaşları və onların ailə üzvləri (həyat yoldaşı, övladları, qardaş/bacıları, valideynləri);

c) Lotereyanın keçirilməsinə bu və ya digər formada cəlb olunan hüquqi və fiziki şəxslər yaxud onların nümayəndələri, ailə üzvləri (həyat yoldaşı, övladları, qardaş/bacıları, valideynləri);

d) Lotereyanın Qaliblərinin müəyyən edilməsi üzrə tiraj komissiyasının üzvləri və onların ailə üzvləri (ər/arvad, övladları, qardaş/bacıları, valideynləri).

e) Bu lotereyanın istənilən tirajında qalib olan şəxslər.

Həmin şəxslər lotereyada iştirak edərsə, heç bir uduş əldə edə bilməyəcək.